

Firudun Qurbansoyun suallarına

# "ÖZÜMÜ XALQIMA, YURDUMA, DÜNYAYA GƏRƏKLİ SAYIRAM..."



Yusif Nəğməkarın cavab həqiqətləri

- Şair Yusif Nəğməkar söhbətə nədən başlamaq istərdi?

- Lap başdan, yəni, başlanğıcdan.

- Baş dediyin nədir ki?

- Binə, özül, kök.

- Kök - yəni...

- Bizi üstündə bitirən, boya-başa yetirən, boyumuzca Vətən torpağı.

- Bəs torpağın harası?

- Beyləqanın Birinci Aşıxlı kəndi, sonra bütöv Azərbaycan...

- Şairlik - söz qoşmaqdı, istedaddı, yoxsa vərdişdir?

- Vərdişlə yazmaq şairlik deyil. Şairlik yalnız haqdan gələn istedaddır. Anan səni şair doğmalıdır ki, sən də şeir dünyaya gətirəsən.

- Bəs dünyaya gətirdiyin şeir, səninçün nədir?

- Yaşamaq, var olmaq - gərəkli bir məna.

- İnsanı şair edən taledir, yoxsa kimdənsə təsirlənmə?

- Məncə, ilk növbədə, yəqin ki, genetik kod. Amma insanı şair edən qeyri amillər də çoxdur. Sıxıntı, kədər, həsrət, ayrılıq, itki və sair və ilaxır. Çünki bir qanun da var. İnsan tapdığının qədrini onu itirəndən sonra daha çox bilir. Bu barədə belə demişəm:

Nəğməkar, tap dərini,
Tap sən öz qədərini.
Tapdığımın qədrini
İtirəndə bilmişəm.

- İstedad nə olan şeydir?

- İstedadı yerin təkindən çıxarmaq, ya göylərdən qapmaq mümkünsüzdür. Yəni, istedad deyilən şey vergidir, ən ümdəsi - Allahın lütfüdür.

- İndinin özündə kimləri şair saymaq olar?

- Yalnız fitrətdən şair olanları...

- Puşkin deyirmiş ki, otuz yaşında şairlik bitir. Tərsini sübuta ehtiyac varmı?

- Puşkin bu fikri ilə nəyə işarə etdiyini tək özü bilirdi. Bütövlükdə işə onun bu məntiqini şəxsən mən yanlış sayıram. Əgər şairlik otuz

20836
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

**yaşından sonra bitirsə, deməli, sevgi, nifrət, kədər, həyəcan, vurğunluq, həyat da, arzular da otuz yaşdan sonra bitməlidir. Bu isə absurddur. Mən "Şər şənbə" adlı poemamı, eləcə də (təvazökarlıqdan uzaq olmasın!)dillər əzbəri olan bir sıra şeirlərimi otuz yaşımdan sonra yazmışam.**

- Bu dünyada insana xoşbəxtlik üçün nə lazımmış?

**- Cansağlığı və azadlıq.**

- O biri dünya üçün neynəmisən?

**- Onu bu dünyada etdiklərimdən soruşmaq lazımdır.**

- Borclarını necə ödəyirsən?

**- Borclu qalmaq əzabı borclarımı ödəmək iqtidarında olmağımın əks-sədasıdır.**

- Halal - haram nə olan şeydir?

**- "Qurani-Kərim"də halal buyrulanların hamısı halal, haram buyrulanların da hamısı haramdır. Həm də nə mənim həqiqətimdisə, o, halalımdır.**

- Yazanda hansı qələmləri xoşlayırsan?

**- Düşündüklərimi yaza bilən qələmlər məni uçuran qanadlarımdır.**

- Səncə bu dünyada pis adam çoxdur, ya yaxşı?

**- Pislərdən yaxşıları ayıra bilsək fərqin çoxluğuna sevinərik. Amma pis adam da, yaxşı adam da dünyanı dünya etmək üçündür.**

- Sevgi nədir? İnsanı xoşbəxt, yoxsa dəli gününə qoyan?

**- Sevgi insanı müdrikləşdirir, cəsur eləyir. Dəliliyin özü elə mərdliyin bir üzü deyilmi?**

- Sən heç dəli günündə olmusanmı?

**- Axtarsan dəli olmadığım anlarım heç ağlıma gəlmir.**

- Bu dünya sənə bir şey öyrətdimi?

**- Bu dünya hələ də məni özünə öyrəşdirə bilmir. Öyrətdiyi də elə budur.**

- Bir vaxtlar başqa əsərlərinlə yanaşı "Sizli" poeman da oxucuların diqqətini çəkmişdi. Səbəbi nədir?

**- O poemanı, məni ədəbiyyata tanıdan novator şairimiz, ustadım Rəsul Rzaya həsr etmişdim. Qalanını oxucular məndən yaxşı bilir...**



- Yəqin ustada ehtiramın, özü də poetik şəkildə sənə oxucu rəğbəti qazandırdı, eləmi?

**- Yəqin ki... Yalnız sənin həqiqi rəğbətin sənə həqiqi rəğbət qazandıra bilər...**

- Səncə xəyanət nədir?

**- Dünyada bu gün ən çox rast gəlinən bir olay.**

- Kitablarından hansı daha ürəyincədir?

**- Zürtə-zülüm çap etdirdiklərim...**

- Sazını çox sevirsən, yoxsa kitablarını?

**- Bu sual ona bənzəyir ki, elə bil məndən soruşursan - oğlunu çox sevirsən, yoxsa qızını? Burda sevgiyə ünvan vermək çətindir.**

- Səncə bu dünyadakı həyatın alınıbmı? Nə arzulamışdın - onlardan hansına çatmısan, hansı gerçəkləşməyib?

**- Bu suala on yeddi yaşımda belə cavab vermişəm:**

**Arzu - o sahilsiz ümman ki, vardır,**
**Onun qucağında yelkən açmışam.**
**Ümidim - çağlayan göy dalğalardır,**
**Demək, səfərdəyəm hər səhər, axşam...**

- Xalqın yaddaşında qalmaqdan ötrü neynəmək lazımdır?

**- Xalqın dilində danışmaq, xalqın düşündüklərini özündən keçirib yaza bilmək.**

- Yalanla aran necədir?

**- Yalana da, yalançılara da yazığım gəlir. Mən öz gerçəyimin quluyam.**

- Təkliyə çəkiləndə ən çox nə barədə fikirləşirsən?

**- Başımın üstə Allahı hiss edirəm və tək olmadığımı duyuram. Ümumiyyətlə, Allahı tək olmayanda belə, həmişə düşünmək lazımdır. Çünki O bizi hər an düşünür.**

- Şair - filosof olmalıdırmı?

**- Nə bilim. Onu bilirəm ki, şair şair olmalıdır.**

- Pilləkənlərlə qalxmaq çətindir, enmək asan. Görəsən, niyə?

**- Məncə belə deyil; enmək çətindir, qalxmaq asan.**

- Sən niyə nəğməkarsan? Kimin üçün oxuyursan?

**- Mən öz içimdə özümü oxuyuram. Necə oxuduğumu eşidənlər bilir. Oxumaq deyəndə ki, şübhəsiz yazmağı nəzərdə tuturam.**

- Çıxan günəşə baxıb nə düşünürsən? İşıq nədir, zülmət nə?

**- Günəşə baxmıram. Günəş bizə baxır. Məncə, işıq zülmətə, zülmət isə işığa çəkib aparan bir ovsardır. Amma bu ovsarın kaş təkcə dəvənin boynuna yox, həm də işığın boynuna bağlaya biləydik. Bir şərtlə ki, ipin ucu əlimizdə ola.**

- El-obamızın gələcəyini təxminən deyək ki, əlli ildən sonra necə görürsən? Nəvə-nəticəmiz bizdən yaxşı olacaq, ya pis?

**- Kökə xəyanət etməsələr, bizdən yaxşı olacaqlarına böyük ümidim var.**

- Bu yaxınlarda sən irihəcmli bir əsər - "Çanaqqala zəfərimiz" poemasını yazdın və müsabiqə qalibi oldun. Sonra səni Türkiyənin Bakıdakı böyük elçiliyi Türkiyəyə - yazdığın mövzunun ünvanına - Çanaqqalaya göndərdi.

**- O da Allahın bir lütfü oldu. Mən əsərimdə nə yazmışdımsa, hamısını olduğu kimi Çanaqqalada gördüm. Bir də onu gördüm və görürəm ki, Çanaqqala zəfərini dönəmləməklə, öyrənməklə, ondan bəhrələnməklə biz Qarabağ zəfərimizə qovuşa bilərik. Çünki yaşamaq haqqımızı dərk etməyin bir yolu da budur.**

- 60 rəqəminə baxanda sağ şüşəsi sınmış gözlüyə bənzəyir. İnsanın sağ gözü daha çox əziyyət çəkir. Gözlərin nədən inciyib?

**- Əgər gözlərim 60-ı incitməyibsə, 60 da gözümə dağ çəkməyibsə, onda mən də özümü 6 ilə 0-ın arasına sıxışdırmaq istəməzdim...**

- Sən Azərbaycan yazıçılarının sonuncu qurultayından sonra "Qobustan" ədəbi almanaxının redaksiya heyətinin üzvü seçildin. Ürəyincədimi?

**- Bu toplunun əsasını 45 il əvvəl hörmətli yazıçımız Anar qoymuşdur. Bu gün də həmin toplunun aurası güclüdür. Belədə niyə "ürəyimcədir" - deməyim ki?!**



- Şöhrətə münasibətin?

**- Həqiqətən şöhrətə layiq insanın şöhrət pilləsində olması şöhrətin üstünə şöhrət gətirər.**

- Ruhu necə sağlam saxlamaq olar?

**- Sevməklə, paxıllıqdan, xəbislikdən uzaq olmaqla.**

- İstedadlı və istedadsız adamları bir-birindən ayırmaq mümkündümü?

**- İstedadlılar abırlı-həyalı olur...**

- 40-cı sirli otaqda nələri görmək istərdin?

**- Təbii ki, bu günə qədər görə bilmədiklərimi.**

- Sənə suallarım bitmədi. Söhbətimizə hansı sualla cavab vermək istərdin?

**- Bitməyən suallarını eşitməklə.**